Tarix və onun problemləri, №3 2009

İLHAMİ ƏLİYEV
*AMEA Naxçıvan Bölməsinin elmi işçisi*

# XVI ƏSRİN SONU XVII ƏSRİN ƏVVƏLLƏRİNDƏ NAXÇIVANDA SİYASİ VƏZİYYƏT

Azərbaycan tarixindən məlumdur ki, Səfəvilər sülaləsi hakimiyyətə gəlişilə Azərbaycan üçün yeni bir dövrün əsasını qoymuşdur. Ərazisinin, əhalisinin, dini və milli mədəniyyətinin vahid mərkəzdən, həm də yerli türk sülaləsi tərəfindən idarə olunması bu ölkənin hərtərəfli inkişaf etməsinə geniş imkanlar yaratmışdır. Səfəvi hökmdarları yaranan bu tarixi şəraitdən layiqincə istifadə edərək ölkənin çiçəklənməsini təmin etmişlər. İki əsrdən artıq hakimiyyəti dövründə bu dövlət bir çox müharibələr, tərəqqi və tənəzzül illərini yaşamışdır. Bu dövrdə inkişafın həmin mərhələlərini Azərbaycanın digər bölgələri kimi onun ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı da keçmişdir.

XVI əsrin son rübündə Səfəvilər dövləti çox ağır və keşməkeşli bir dövr yaşamışdır. Belə ki, hakimiyyət dəyişiklikləri və Osmanlı dövləti ilə müharibələr mərkəzi hakimiyyətin zəifləməsinə gətirib çıxardı ki, nəticədə bir sıra Azərbaycan bölgələri Osmanlılar tərəfindən işğal edildi. 1590-cı ildə bağlanan İstanbul sülh müqaviləsinə görə Osmanlı dövlətinin idarəçiliyi altına düşən Azərbaycan ərazilərinin bir hissəsini də Naxçıvan mahalı təşkil edirdi.

İstanbul sülhünə qədər və bundan sonra XVII əsrin əvvəlləri də daxil olmaqla olan illər ərzində Naxçıvanda baş verən mürəkkəb siyasi hadisələrə nəzər saldıqda görürük ki, həmin dövr bir neçə fərqli mərhələdən keçmişdir: 1) I Təhmasibin hakimiyyətinin sonlarından Osmanlı işğalına qədər, 2) Osmanlı idarəçiliyi, 3) Səfəvilərin hakimiyyətinin bərpası mərhələləri.

I Şah Təhmasibin vəfatından sonra Səfəvilər dövlətinin mərkəzi aparatında idarəetməyə nəzarət zəiflədi. Əvvəlcə qısa bir müddətdə (1576-1577) hakimiyyətdə olan II İsmayılın represiya siyasəti, bunun ardınca onun ölümü və Məhəmməd Xudabəndənin taxta çıxarılması hadisələri baş verdi. Bu zaman Azərbaycan Səfəvilər dövləti dərin tənəzzül dövrünü yaşamış və ölkə iqtisadiyyatı tamamilə zəifləmişdir. Bundan istifadə edən qonşu Osmanlı imperiyası bu dövlətin ərazisinə tez-tez hücumlar edir, yaşayış yerlərini və təsərrüfat sahələrini dağıdır, talan edir, insanları öldürür və əsir götürürdülər. Tutduğu coğrafi mövqedən asılı olaraq Naxçıvan mahalı üçün bu hücumlar daha ağır nəticələrə gətirib çıxarmışdır. Məsələn, R.Məmmədov mənbələrə istinadən göstərir ki, "1579-cu ildə III Sultan Muradın hakimiyyəti dövründə Osmanlı feodalları tərəfindən Naxçıvan şəhəri və onun ətraf yerlərindən qırx mindən artıq əsir aparılmışdır" (6, s. 127). Bu dövrdə ölkənin daxilində feodal ara müharibələri və əlavə olaraq xarici qüvvələrin dağıdıcı təsiri mahal əhalisinin vəziyyətini daha da ağırlaşdırırdı. Belə bir vaxtda təbii ki, xalq müharibələr və onların acı nəticələrindən yaxa qurtarmaq, dinc şəraitdə yaşamaq istəyirdi. Bunun üçün ölkəyə lazımi dövlət siyasətini həyata keçirə bilən ağıllı və qüdrətli hökmdar lazım idi.

II İsmayıl sünni təriqətinə meyilli olduğuna görə onun zamanında Osmanlı təhlükəsi olmamışdır (2, s. 125). O, qısa hakimiyyəti dövründə taxt-taca iddialı qardaşını, onun tərəfdarlarını (hətta onların arasında bir çox yaxın qohumlarını da) öldürtdürmüşdür. II İsmayıl Şərəfxan Bidlisini mərkəzi hakimiyyətdən uzaqlaşdırmaq məqsədilə Naxçıvan hakimi təyin etmiş və onu bu mahala göndərmişdir (6, s. 127). Lakin Şərəfxan bir ildən sonra hakimiyyəti tərk edərək Bidlisə getmişdir. Göründüyü kimi əhali

arasında olan narazılığın artmasının bir səbəbi də mahalın idarə olunmasında yaranan qarışıqlıq və boşluq idi.

Dövlətin idarə olunmasında bacarığı və səriştəsi olmayan, təxminən on ilə yaxın müddətdə ölkə iqtisadiyyatını tamamilə dağıdan Məhəmməd Xudabəndənin (1578-1587) hakimiyyəti zamanında dəfələrlə edilmiş Osmanlı hücumları nəticəsində başda Naxçıvan mahalı olmaqla Azərbaycanın qərb sərhədlərində yerləşən bölgələri dağıdılmış və talan edilmişdir.

1578-ci ildə Mustafa Lələ Paşanın başçılığı ilə yüz min nəfərlik Osmanlı ordusu Azərbaycan ərazisinə daxil olaraq başqa şəhərlərlə birlikdə Naxçıvanı da tutdu və bir müddətdən sonra siyasi, hərbi amillərdən asılı olaraq buranı tərk etdi (6, s. 127). Görünür Məhəmməd Xudabəndə hakimiyyətə gəldiyi vaxtdan ölkəyə xarici müdaxilənin təsiri güclənmişdir. Oruc bəy Bayat göstərir ki, 1583-cü ildə Naxçıvan Osmanlılar tərəfindən işğal edilmişdir (14, s. 104). Lakin tarixi mənbələr bunu təkzib edir (10, s. 65). 1586-cı ildə Naxçıvan mahalı yenə Osmanlılar tərəfindən tutuldu. Osmanlı tarixçiləri qeyd edir ki, bu zaman mahal hakiminin istəyi ilə bu ərazi Osmanlıların hakimiyyəti altına keçmişdir (4, s. 373). Bunun bir səbəbi o zaman Təbrizi tutan türklərin orada güclü dağıntılar törətməsindən sonra Naxçıvanı belə bir təhlükədən qorumaq ola bilərdi. Digər səbəbi isə həmin vaxt mərkəzi hakimiyyətin dövlətin idarə olunması və sərhədlərinin toxunulmazlığını təmin edə bilməməsi idi. Nəticədə mahal hakimi tez-tez təkrarlanan dağıntılar, qırğınlar, talanlar və s. üzücü müharibələrin nəticələrindən yaxa qurtarmaq məqsədilə məcburən Osmanlılara tabe olmuşdur. Lakin, 1587-ci ildə hakimiyyətə gələn I Şah Abbasın Naxçıvan hakimi təyin etdiyi Zülqədərli Şahqulu Sultan 1587-1588-ci ilin qışında Naxçıvan bəyini məğlub edərək bölgəni geri almışdı(10, s. 89).

Bununla belə Səfəvilərin Naxçıvanda hakimiyyətinin bərpası çox da uzun sürmədi. Belə ki, 1588-ci ilin noyabrında Osmanlılar bölgəni yenidən işğal etdilər. Həm də bu dəfə onlar tutduqları Azərbaycan bölgələrində müəyyən müddətə möhkəmlənə və öz idarəçilik sistemlərini qura bildilər. Yuxarıda qeyd etdik ki, Osmanlı mənbələrinə əsasən tarixçilər göstərmişdir ki, 1586-cı ildə Naxçıvan hakimi özü ölkəsini Osmanlıların hakimiyyəti altına keçirmişdir. 1588-ci il işğalı haqqında isə Şərəfxan Bidlisi belə yazmışdır: "Bu il sərdar Fərhad paşa Naxçıvan vilayətinin işğal edilməsi üçün yerli sakinlərin xahişinə görə İrəvan əmirəl-ümərası Xəzər paşanı ora göndərdi. Xəzər paşa ora gələndə rəiyyət, əyanlar və sakinlər itaət göstərdilər, o, bu vilayətin sahibi oldu və qəsəbədə Balaban köşkü adlı qüdrətli qalanın əsasını qoydu" (17, s. 260). Bu haqda türk tarixçisi F. Kırzioğlu da öz əsərində bəhs etmişdir (4, s. 373). Rəsmi şəkildə mahalın Osmanlı hakimiyyəti altına düşməsi isə 1590-cı ildə Səfəvilər dövləti ilə Osmanlılar arasında bağlanan sülh müqaviləsi ilə təsdiqlənmişdir.

Yuxarıda qeyd etdiyimiz birinci mərhələ 1587-ci ildə, yəni I Şah Abbasın taxta çıxması ilə başa çatır. Bu mərhələdə Naxçıvan mahalında qeyri-sabit vəziyyət hökm sürmüşdür. Omanlı-Səfəvi müharibələri nəticəsində təsərrüfat dağınıqlığı və asayişin tez-tez pozulması halları baş vermişdir. Bu müharibələrin Naxçıvan mahalı üçün ən acı nəticələrindən biri də əhalinin kütləvi şəkildə öz doğma yaşayış yerlərini tərk edərək Azərbaycanın başqa bölgələrinə köçməsi olmuşdur. Bu fikri bir neçə il sonra hazırlanan Osmanlı dövlət sənədləri təsdiq edir. 1590-cı ildə Osmanlılar tərəfindən tərtib edilən "İrəvan əyalətinin müfəssəl dəftəri"nə əsasən Naxçıvan sancağı üzrə 393 yaşayış məskənindən 269-nun əhalisi öz yerlərini tərk etmişdir. Hətta sancağa tabe olan Bazarçayı, Zar, Zəbil nahiyələrinin kəndləri tamamilə boşalmışdır (4, s. 13). Həm xarici müdaxilə, həm də daxili hakimiyyət çəkişmələri əhalinin sayının azalmasına və abad şəhərlərin, kəndlərin və s. dağıdılmasına gətirib çıxarmışdır. Bu da ölkə iqtisadiyyatının zəifləməsinə səbəb olmuşdur.

1588-ci ildən Naxçıvan mahalı da digər Azərbaycan bölgələri kimi Osmanlı idarəçiliyinə daxil edilmişdir. Bu zaman Osmanlılar bölgədə Naxçıvan sancağı inzibati ərazi bölgüsünü yaratmışdılar. 1603-cü ilədək, yəni 15 il müddətində Osmanlı işğalı altında qalan bölgədə əvvəlki illərlə müqayisədə sabitlik, müharibəsiz vəziyyət hökm sürmüşdür. Osmanlılar üçün hərbi-strateji baxımdan əlverişli mövqedə yerləşən Naxçıvan sancağı xüsusi əhəmiyyət kəsb edirdi. Burada onlar hərbi və siyasi baxımdan daha çox möhkəmlənməyə çalışırdılar. Belə ki, bu zaman Osmanlı komandanlığı Naxçıvan şəhərini öz hərbi düşərgələrindən birinə çevirərək orada xüsusi hərbi dəstələrini saxlayırdı (4, s. 127). Onlar əhalinin mövcud hakimiyyətə marağını artırmaq üçün vergi siyasətini müəyyən qədər tənzimlədi. Məsələn, Naxçıvan sancağı üçün tərtib edilən "müfəssəl dəftər" statistik məlumat kitabı olub vergilərin yığılmasını nizama salmaqdan ötrü hazırlanmışdır. Bu "müfəssəl dəftər"lər bir neçə ildən sonra təzələnirdi.

Lakin, bu zaman hakim dairələr ölkə ərazisində dağıntılara məruz qalmış yaşayış yerlərinin, təsərrüfat sahələrini bərpa etmək əvəzinə yığılan vergilərin miqdarını getdikcə artırmışlar. Digər tərəfdən bölgədə şiəliyin təqib edilərək sünniliyin təbliği halları yerli əhalinin narazılığına səbəb olmuşdur. Belə ki, 1603-cü ildə I Şah Abbas tərəfindən Naxçıvan azad edilərkən əhali şah qoşunlarını rəğbətlə qarşılamış bəzi yerlərdə, məsələn, Ordubadda şəhərin Osmanlılardan alınması üçün yerli camaat Səfəvilərə kömək etmişdir. Bunun müqabilində şah xüsusi fərmanla şəhər əhalisini vergilərdən azad etmişdir (15, s.28).

İkinci mərhələ yenicə taxta çıxan I Şah Abbasın öz hakimiyyətini möhkəmləndirməkdən ötrü daxili və xarici qüvvələri susdurmaq üçün əldə etdiyi müvəqqəti atəşkəs rejiminə bənzəyirdi. Bu zaman Naxçıvan mahalı üçün Amasiya sülhündən (1555-ci il) 1578–ci ilədək olan müharibəsiz vəziyyət yenidən təkrarlandı. Ancaq o dövrdən fərqli olaraq mahal Osmanlı işğalı altında idi. Həmin vaxt Naxçıvanın idarə olunması Osmanlı hökuməti tərəfindən Xəzər paşaya həvalə olunmuşdu (6, s. 127-128).

Üçüncü mərhələ XVI əsrin sonlarında işğal edilmiş Azərbaycan torpaqlarının Səfəvilər tərəfindən azad edilməsi ilə başlanır. 1603-cü ildə Osmanlı işğalı altında olan digər Azərbaycan bölgələri kimi Naxçıvan mahalı da I Şah Abbas tərəfindən azad edildi. Əslində isə şah qoşunları heç bir maneəyə rast gəlmədən bu qələbəni əldə etdilər. Bu zaman Naxçıvandan çıxarılan Osmanlı hərbi dəstələri İrəvan qalasında yerləşdirilmişdi. Ə. Rəhmani göstərir ki, həmin vaxt on minlik türk qoşunu tərəfindən İrəvan qalası möhkəm müdafiə olunurdu. Şah qalanın alınması üçün Naxçıvan və Culfa əhalisinin səfərbərliyə alınaraq döyüşə qatılması haqqında əmr verdi (16, s. 67). 16 noyabr 1603-cü il tarixindən Osmanlılar tərəfindən müdafiə olunan qala nəhayət 8 iyun 1604-cü ildə geri alındı. Bu qədim Azərbaycan şəhərinin azad edilməsində xeyli naxçıvanlı çətinliklərdən-odlu silahlardan açılan atəşlərdən, aclıqdan, soyuqdan həlak olmuşdur. Buradan görünür ki, işğaldan təzəcə azad edilmiş Naxçıvanda əhali yeni çətinliklərlə qarşılaşmışdı. Bir məsələni qeyd etmək yerinə düşər ki, bu zaman I Şah Abbas Naxçıvana xüsusi önəm verirdi. Belə ki, o mahalın alınmasından üç gün sonra buraya gəlmişdir. Həmin dövrdə Naxçıvan Səfəvi və Osmanlı dövlətləri arasında sanki bir körpü rolunu oynayırdı. Amma bu körpü birləşdirici yox, hərbi-strateji cəhətdən əhəmiyyətli mövqe xarakteri daşıyırdı. Buna görə də Səfəvilər tezliklə bölgədə hərbi qərargahlarını möhkəmləndirdilər.

Lakin, bu heç də Naxçıvan və digər Azərbaycan bölgələri üçün siyasi sabitliyin əldə edilməsində son nöqtə olmadı. 1605-ci ildə Osmanlı dövləti sərdar Sinan Paşanın rəhbərliyi altında I Şah Abbasa qarşı böyük bir ordu göndərdi (13, s.186). Osmanlıların bu dəfəki, hücumunun səbəbi 1603-cü ildə əldən verdikləri Azərbaycan bölgələrini geri qaytarmaqla bərabər, şərqdə zəifləyən nüfuzlarını bərpa etmək məqsədini reallaş-

dırmaq idi. Digər Azərbaycan bölgələri kimi Naxçıvan mahalı da müharibə gedən ərazilərə daxil idi. Həm də bu zaman bölgə XVII əsrdə ən ağır və keşməkeşli illərini yaşamışdır. Belə ki, Səfəvilərin ənənəvi hərbi taktikasından istifadə edən I Şah Abbas öz məqsədlərinə çatmaq üçün dövlətin qərb sərhədlərində yerləşən ərazilərində güclü dağıntılar və amansız köçürmə siyasətini həyata keçirmişdir. Hələ Osmanlı qoşunları ölkə ərazisinə daxil olmamış şahın əmrilə mahalın Arazboyu yaşayış yerlərinin əhalisi qısa müddətdə, zorla öz doğma yurdlarından Səfəvilər dövlətinin mərkəzi vilayətlərinə köçürdülmüşdür. Eyni vaxtda boşaldılmış bütün şəhər, qəsəbə, kənd və digər yaşayış məskənləri, təsərrüfat sahələri tamamilə dağıdılaraq yandırılmış və yararsız hala salınmışdır. Mənbələrdən birində göstərilir ki, bir müddətdən sonra şah geri qayıdarkən bir gün Naxçıvanda qalmalı olmuşdur. Lakin ətraf yerlər elə dağıdılmışdı ki, hətta burada şah və onun əyanları üçün ərzaq ehtiyatı tapmaq mümkün olmamışdır (6, s. 134). Təkcə bu fakt həmin vaxt Naxçıvan mahalının əksər hissəsinin yox olma dərəcəsinədək dağıdıldığını göstərir.

Arazın sol sahili boyu həyata keçirilən və tarixdə "Böyük sürgün" adını daşıyan bu genişmiqyaslı köçürmə siyasətinin səbəbi nə idi və nəticəsi necə oldu? Bu haqda indiyə kimi bir çox tədqiqatçı-alimlər o dövr taixçi və səyyahlarının əsərləri üzrə araşdırmalar aparmış və əldə etdikləri nəticələri təhlil etmişlər (16, s. 69; 11, s 42). Yekun olaraq tarixşünaslıqda səbəb kimi göstərilmişdir ki, həmin vaxt (1605-ci il) I sah Abbas Osmanlı qoşunlarının hücumunu dəf edə bilməyəcəyini görüb onların yolu üzərindəki bütün yaşayış yerlərini və təsərrüfat sahələrini dağıtdırmış və əhalisizləşdirmişdir. Həmçinin, şahın əsas məqsədi İranın mərkəzi vilayətlərində məhsuldar qüvvələrin sayını artırmaq, qərblə şərq arasındakı qədim ticarət younun istiqamətini dəyişərək ölkənin cənubuna keçirmək idi (1, s. 256). Nəticədə isə boş qalmış tarixi Azərbaycan torpaqları viranəliyə çevrilmişdir.

Bir sıra tarixçilər bu hadisənin hərbi-siyasi zərurətdən yarandığını göstərmişlər (8, s. 70; 5, s. 75). Fikrimizcə, bununla yanaşı məsələnin digər bir tərəfi ondan ibarət idi ki, şah Osmanlı-Səfəvi sərhəddində mümkün qədər geniş neytral zona yaratmaq istəmişdi. Belə taktikanın sonrakı müharibələrdə də tətbiqi göstərir ki, bununla həm də maddi sərvətlərin düşmən əlinə keçməsinin qarşısı müəyyən qədər alınırdı.

XVII əsrin birinci rübündə dəfələrlə 1603-1607, 1610-1612, 1616-1618, 1622-1623, 1624-1626-cı illərdə baş vermiş Osmanlı-Səfəvi müharibələri zamanı daha çox Səfəvilərin qələbə qazanmalarına baxmayaraq bu müharibələr ölkə ərazisində böyük dağıntıların törədilməsinə səbəb olmuşdur. Həmin illərdə Azərbaycanin digər bölgələri kimi Naxçıvan mahalı da bu müharibələrdən xeyli ziyan çəkmişdir. Həm də mahal üçün ən acınacaqlı hal o idi ki, onun belə vəziyyətə salınmasında Səfəvilərin də Osmanlılar qədər rolu var idi. Hələ bu azmış kimi Osmanlılar tərəfdən vuruşan Krım xanının ordusu 1617-ci ildə sultanın əmrilə Azərbaycana soxulmuşdur. Bu zaman tatarlar Naxçıvanı da talan etmişdilər (1, s. 260). I Şah Abbasın həyata keçirdiyi "dağıdılmış torpaq", "yandırılmış torpaq" siyasətində məqsədi Naxçıvanı və dağıdılmış digər yaşayış yerlərini əhalisiz saxlamaq olsa da sonradan yerli əhalinin müəyyən bir qismi yenidən öz evlərinə qayıtdılar (12, s. 66). Qeyd etmək lazımdır ki, şahın köçürmə siyasəti mahal əhalisinin demoqrafik vəziyyətinin dəyişməsinə səbəb olmuşdur. Bu siyasət nəticəsində Cənubi Qafqazda məskunlaşmağa başlayan gəlmə ermənilər üçün geniş meydan açılmışdır.

Tarixi mənbələri diqqətlə araşdırdıqda məlum olur ki, həmin dövrdə ermənilər Osmanlı və Səfəvi dövlətlərinin hakim dairələri yanında qazandıqları məkrli nüfuzlarından istifadə edərək öz məqsədlərinə çatırdılar. Məsələn, Üçkilsədəki erməni icmasının başçısı Flippos I Şah Abbasa müraciətində yazmışdı: "Hazırda bizim vilayətdə ya-

şayanların əksəriyyəti müxtəlif vilayətlərdən əlahəzrət hökmdarın tükənməz sevgisi və qayğısı nəticəsində köçürülmüşdür. Üçkilsədəki 300 ibadətkar gecə-gündüz öz dualarında burada yaşamaları üçün tamamilə əlahəzrət hökmdarın mərhəmətinə borclu olduqlarını göstərirlər" (8, s. 32). Bu sənəd şahın onlara qarşı qayğıkeş münasibətini aydın şəkildə göstərir. Təəccüb doğuran hal budur ki, ermənilər eyni vaxtda Osmanlı hökmdarları yanında da öz istəklərinə nail olmuşdular. Sultan III Muradın Səfəvilər üzərinə hücumdan əvvəl, 28 aprel 1578-ci ildə imzaladığı fərmanda "rəayadan olan xəracgüzar erməni tayfasının mallarına və canlarına zərər verilməməsi ..." əmr edilmişdir (3, s. 12). Fərmandan görünür ki, ənənəvi "məzlumluq" psixologiyası ilə ermənilər sultanın yanında da nüfuz qazana bilmişlər. Bu və digər tarixi faktlardan aydın olur ki, onlar hansı yolla olur olsun Azərbaycanın qədim diyarı olan Naxçıvanda da Səfəvilər dövründən öz çirkin niyyətlərinin həyata keçirilməsinin təməlini atmağa başlamışdılar.

XVI əsrin sonu XVII əsrin əvvəllərində Naxçıvan diyarının siyasi həyatındakı hadisələri araşdırdıqda məlum olur ki, həmin illərdə baş verən müharibələr və onların acı nəticələri xalqın həyatında dərin iz buraxmışdır. Demək olar ki, bölgə uzun müddət aramsız müharibələr meydanına çevrilmişdir. Yaşayış yerlərinin və təsərrüfat sahələrinin dağıdılması, insanların öldürülməsi və zorla öz doğma yurdlarından didərgin salınması nəticəsində ölkə iqtisadiyyatı tənəzzülə uğramışdır. Boş qalmış qədim Naxçıvan diyarının tarixi torpaqlarında gəlmə ermənilər məskunlaşmağa başlamışdılar.

### *ƏDƏBİYYAT*

1.Azərbaycan tarixi 7 clilddə. III cild. (XIII-XVIII əsrlər). Bakı: 584 s.
2.Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
3.İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akademik Z.Bünyadov və t.e.n. H.Məmmədov. Bakı: Elm, 1996, 184 s.
4.Kırzıoğlu F. Osmanlıların Qafqaz ellərini fəthi (1450-1590). Ankara: 1976,
5.Qasımov X.S. Naxçıvan Azərbaycan mədəniyyəti ocaqlarından biri kimi (Səfəvilər dövrü) / Naxçıvan Muxtar respublikası (məqalələr toplusu). Bakı: Elm, 1999, s. 73-79
6.Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: Elm, 1977, 158 s.
7.Naxçıvan sancağının müfəssəl dəftəri. Giriş və tərcümənin müəllifləri akademik Z. Bünyadov və t.e.n. H. Məmmədov. Bakı: Elm, 2001, 376 s.
8.Nəcəfli G. XVIII əsrdə Azərbaycanda erməni dövləti yaradılması cəhdləri. Bakı: Elm, 2007, 248 s.
9.Nəcəfli T. Naxçıvan XVI-XVII əsrlərdə. Naxçıvan bu gün: İslahatlar perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları) Naxçıvan: 2008, 86-97 s.
10.Nəcəfov T.T. Səfəvi-Osmanlı müharibələri və Naxçıvan (XVI əsr XVII əsrin əvvəlləri) / Naxçıvan Muxtar respublikası (məqalələr toplusu). Bakı: Elm, 1999, s. 62-72
11.Səfərli F. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003, 392 s.
12.Şardən Y. Səyahətnamə. Fransız dilindən tərcümə edəni Vaqif Aslanov. Bakı: Elm, 1994,
13.Давриженци Аракел. Книга историй. Текст воспроизведен по изданию Ханларян Л.Д. Москва: Наука, 1973, 610 с.
14.Книга Орудж-бека Байата. Дон-Жуана Персидского. Перевод с английского, введение и комментарии д. и. н. Октая Эфендиева, к. и. н. Акифа Фарзалиева. Баку: 1988,
15.Мешадиханум Неймат. Корпус эпиграфических памятников Азербайджана. Том III. Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (XII – начала XIX века). Баку: XI-YNE, 2001, 216 с.
16.Рахмани А. А. Азебайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, 240 с.
17.Шараф-Хан Ибн Шамсаддин Бидлиси. Шараф-Наме. Перевод, предисловие, примечания и приложения Е. И. Васильевой. Т.II. Москва: 1976, 350 с.

**ИЛЬХАМИ АЛИЕВ**

## ПОЛИТИЧЕСКИЕ ПОЛОЖЕНИЕ НАХЧЫВАНА В КОНЧЕ XVI И В НАЧАЛЕ XVII ВЕКЕ

В статье говорится о политической жизни Нахчывана конча XVI начала XVII веков. В этот период в последствии Османлинско-Сефевидских войн большая часть края была разрушена и его население было переселено в центральные области Ирана, на их опустевших землях разместились армяне-переселенцы.

**ILHAMİ ALİYEV**

## THE POLITICAL SITUATION IN NAKHCHIVAN AT THE END OF THE 16TH AND BEGINNING OF THE 17TH CENTURE

In the article is talked about the political life of Nakhchivan at the ends of the 16 th and at the beginnings of the 17th centure. At this time the considerable parts of the region destroyed and the population has been exiled to the central provinces of Iran by the influence of the Osmanli-Safavy wars. As a conclusion the coming armenians began to settle in these empty settlements.

***Rəyçilər: t.e.d.H.Y.Səfərli, t.e.d.Q.Ə.Əliyev.***

***AMEA Naxçıvan bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Elmi Şurasının 06 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***